# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№362/1** **28 dekabr 2023-cü il**

## Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2024-cü il üzrə iş planları barədə

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə, “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına (2021-2030-cu illər)” və Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 10.9-cu “2024-cü il üçün Auditorlar Palatasının iş planının hazırlanması” bəndinə uyğun olaraq hazırlanmış Auditorlar Palatasının və Palata Şurasının 2024-cü il üzrə iş planlarının layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2024-cü il üzrə iş planları təsdiq edilsin (əlavə olunur).
2. Məsul icraçılara (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, N.Talıbov, Ş.Əsgərova, E.İbrahimov, Q.Əhmədov, V.Cavadov, E.Behbudova, R.Cəfərli, Z.Almazov, N.İsmayılova, H.Paşa, M.Hüseynova) tapşırılsın ki, təsdiq edilmiş iş planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.
3. Palata sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, iki ay müddətində bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının mətnlərinin ingilis və rus dillərinə tərcümə olunmasını və ingilis dilinə tərcümə olunmuş variantının Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsini təmin etsin.
4. Bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2024-cü il üzrə iş planlarının mətnləri azərbaycan, ingilis və rus dillərində Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**